**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının ilk iclasının**

**P R O T O K O L U № 1**

**Naxçıvan şəhəri** **13 fevral 2024-cü il**

13 fevral 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının ilk iclası keçirilib.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının üzvü İsa Məmmədov

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının üzvü Əmir Babayev

**İclasda iştirak etdilər:**

1. Vəliyeva Günel Fəxrəddin qızı -Komissiyanın üzvü
2. Məmmədli Turan Bəyməmməd qızı -Komissiyanın üzvü
3. İsmayılov Ehtibar Şəhrud oğlu -Komissiyanın üzvü

**Dəvət olunanlar:**

1. Ramil Nəbiyev -Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
2. Əliheydər Qurbanlı -Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
3. Oruc Babayev -Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

**İclasın gündəliyi:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının sədrinin və katibinin seçilməsi

İclası İsa Məmmədov açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının 5 üzvü, Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin məsul şəxsləri iştirak edirlər. O, Ali Məclisin Daxili Nizamnaməsinin 45.3-cü maddəsinə əsasən Hesablayıcı komissiyanın iclasının səlahiyyətli olduğunu qeyd etdi və komissiya üzvlərinə gündəlikdə duran məsələlərlə bağlı məlumat verdi.

İsa Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 1 fevral tarixli 39 nömrəli qərarı ilə Hesablayıcı komissiyanın yaradıldığını və Komissiyanın 5 üzvdən ibarət tərkibinin təsdiq edildiyini diqqətə çatdırdı. Bildirdi ki, Hesablayıcı komissiya açıq və gizli səsvermələri keçirmək və onların nəticələrini müəyyən etmək məqsədilə yalnız Ali Məclisin iclaslarında fəaliyyət göstərir. Daxili Nizamnaməyə əsasən Hesablayıcı komissiya deputatlar sırasından 1 il müddətinə seçilir və seçildikdən sonra komissiya öz üzvləri sırasından komissiyanın sədrini və katibini seçir.

İsa Məmmədov Hesablayıcı komissiyanın üzvü Turan Məmmədlinin fəaliyyətini müsbət dəyərləndirdi və komissiyanın sədri vəzifəsinə onun namizədliyini təklif etdi.

Sonra söz komissiyanın üzvü Ehtibar İsmayılova verildi.

**Çıxışda:** Ehtibar İsmayılov növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə keçirilməsindən duyduğu məmnunluğu dilə gətirdi və dövlət başçısının prezident seçkilərində inamlı qələbəsi münasibətilə həmkarlarını təbrik etdi. O, komissiyanın sədri vəzifəsinə təklif olunan Turan Məmmədlinin fəaliyyətini müsbət qiymətləndirdi və seçiləcəyi təqdirdə ona həvalə olunacaq məsuliyyətin öhdəsindən asanlıqla gələcəyinə əminliyini ifadə etdi.

Sonra iclasın sədri İsa Məmmədov Ali Məclisin Daxili Nizamnaməsinin 45.3-cü maddəsinə əsasən komissiyanın bütün qərarlarının onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edildiyini diqqətə çatdırdı və Turan Məmmədlinin Hesablayıcı komissiyanın sədri vəzifəsinə namizədliyi məsələsini səsə qoydu.

**Təklif komissiya üzvləri tərəfindən yekdilliklə qəbul olundu.**

Sonra söz komissiyanın sədri Turan Məmmədliyə verildi.

**Çıxışda:** Turan Məmmədli Ali Məclisin rəhbərliyinə minnətdarlığını, deputatlara isə ona göstərilən etimada görə təşəkkürünü bildirdi və komissiyanın gələcək fəaliyyəti ilə bağlı fikirlərini səsləndirdi. O, çıxışının sonunda komissiyanın katibi vəzifəsinə Günel Vəliyevanın namizədliyini irəli sürdü.

Təklif səsə qoyuldu və Günel Vəliyeva komissiya üzvlərinin sadə səs çoxluğu ilə Hesablayıcı komissiyanın katibi seçildi.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının qərarı oxundu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyası qərara alır:**

1. Turan Məmmədli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının sədri seçilsin.

2. Günel Vəliyeva Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının katibi seçilsin.

**İclasa sədrlik edən:** **İ. Məmmədov**

**Katib:** **Ə. Babayev**